# İtaliya nəşri COP29 ərəfəsi konfransından yazıb




**İtaliyanın "Notizie Geopolitiche" nəşrində Azərbaycanın ev-sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu (COP29) sessiyası barədə məqalə dərc olunub.**

AZƏRTAC xəbər verir ki, yazıda COP29 ərəfəsində Bakıda keçirilən "Ambisiyanı artırmaq və iqlim fəaliyyətinə təkan vermək" mövzusunda Pre-COP29 konfransının əhəmiyyətindən bəhs edilib. "Azərbaycan. COP29-a doğru" sərlövhəli yazıda Azərbaycan Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciət ünvanladığı bildirilib. Prezident İlham Əliyevin müraciətində Azərbaycanın 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etdiyini, ölkəmizin milli səviyyədə "təmiz ətraf mühit və yaşıl artım" üzrə sosial-iqtisadi prioriteti uğurla reallaşdırdığını, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurun "Yaşıl enerji" zonaları elan edildiyini vurğuladığı diqqətə çatdırılır. Dövlətimizin başçısının COP28, COP29 və COP30-un sədrləri qismində Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliya tərəfindən "İqlim Troykası" təsis edildiyini, sentyabrda Bakıda İtki və Zərərə Cavab Fondunun əməli fəaliyyətə başlaması istiqamətində irəliləyişin əldə olunduğunu, COP29-da "Bakı Sazişi"nin əldə edilməsinə ümidvar olduğunu qeyd etdiyi bildirilir.

Materialda eyni zamanda COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin, BMT Baş katibinin birinci müavini Amina Mohammedin, BƏƏ-nin sənaye və qabaqcıl texnologiyalar naziri və COP28-in prezidenti Sultan Əl Cəbirin, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stillin və Köməkçi icra orqanının sədri Nabil Munirin fikirlərinə yer verilib.

Konfrans çərçivəsində Azərbaycan ilə Braziliya arasında "Bakıdan Beleмə (B2B) İqlim Tərəfdaşlığı" üzrə Anlaşma Memorandumunun imzalandığı da diqqətə çatdırılır.

Azərbaycan.- 2024.- 13 oktyabr (№ 225).- S.7.